# Elmi ünsiyyətdə süni intellektin istifadəsi üzrə tövsiyələr

**Ümumi məlumat:** Böyük Dil Modellərinin və Yaradıcı Süni İntellektin son inkişafı elmi ünsiyyətdə yeni problemlər və imkanlar yaradır. Bu, Süni İntellektin istifadəsi ilə bağlı jurnalların, nəşriyyatların və maliyyəçilərin müxtəlif siyasətləri ilə nəticələndi. Tədqiqatlar, o cümlədən sorğular göstərir ki, tədqiqatçılar artıq Süni İntellektdən əlyazma və ekspert rəy hesabatlarını yazmaq və ya redaktə etmək üçün əhəmiyyətli miqyasda istifadə edirlər. Bununla belə Süni İntellektin dəqiqliyi, effektivliyi, reproduktivliyi qeyri-müəyyən olaraq qalır. Bu alət redaktorlar, müəlliflər, rəyçilər tərəfindən cari siyasət və təcrübə nümunələrinə keçidi təşviq etməklə Süni İntellektdən məsuliyyətli və şəffaf istifadəni təbliğ edir. Süni İntellekt sürətlə inkişaf etdiyinə görə, biz yeni məlumatlar əlçatan olduqca bu tövsiyələrə nəzarət edəcək və yeniləyəcəyik. Zəhmət olmasa, bizimlə əlaqə saxlayın və bu təlimatı təkmilləşdirməyə kömək edəcək fikirlərinizi, rəylərinizi və nümunələrinizi bölüşün.

**Redaktorlar, jurnallar və nəşriyyatçılar üçün tövsiyələr:**

- **Süni İntellekt siyasətinizə uyğunluğu yaradın, nəşr edin və nəzarət edin.**
- **Jurnalın, müəlliflərin və rəyçilərin Süni İntellektdən istifadəsinə dair bəyannamələrini toplayın və nəşr edin.**

Biz redaktorlara, jurnallara və nəşriyyatçılara öz nəşriyyat təcrübələrində Süni İntellektdən istifadə ilə bağlı siyasətlər hazırlamağı və həmin siyasətləri jurnalın saytında dərc etməyi tövsiyə edirik. Məsələn, müəlliflər üçün siyasətlər jurnalın "Müəlliflərə Təlimat" və ya "Təqdimat Təlimatları"nda, rəyçilər üçün siyasətlər isə jurnalın "Rəyçi Təlimatları"nda göstərilməlidir. Siyasətlər e-poçt vasitəsi ilə və onlayn təqdimetmə sistemində müəlliflərə və rəyçilərə aydın şəkildə çatdırılmalıdır. Siyasətlərə, həmçinin, tərəflərin mümkün siyasət pozuntuları ilə bağlı narahatlıqları, hər hansı bir tərəfin pozuntu halında üzləşə biləcəyi nəticələr və bu siyasətlə bağlı jurnal qərarlarına müraciət etmək üçün mümkün vasitələr haqqında necə fikir bildirmələri haqqında məlumat daxil edilməlidir. Əlavə olaraq, siyasətlər təhsil resursları və ya Süni İntellektdən məsul istifadəyə dair məlumata

keçidlə tamamlanmalıdır (məsələn, Avropa Tədqiqat Sahəsi Forumu tərəfindən hazırlanmış tədqiqatda yaradıcı Süni İntellektdən məsul istifadəyə dair təlimata baxın). Redaktorlar, həmçinin, nəşr olunan redaksiya məqalələri vasitəsi ilə Süni İntellekt siyasətlərinin buraxılmasını və yenilənməsini düşünməlidirlər.

Biz Süni İntellekt siyasətlərinin hazırlanmasına və həyata keçirilməsinə təsir göstərə biləcək intizam və əməliyyat çətinliklərinin ola biləcəyini qəbul edirik (məsələn, təqdimetmə sisteminin məhdudiyyətləri). Bunun belə, Süni İntellektdən istifadə və onun istifadəsi ilə bağlı hər hansı potensial maraq toqquşması haqqında məlumat toplamaq üçün aydın yoxlamalar və bəyannamə formaları yaradıla bilər (məsələn, istifadə olunan Süni İntellektin nəşr edən tərəfindən hazırlanıb-hazırlanmadığını açıqlamaq).

Müəyyən bir əlyazma üçün Süni İntellektin istifadəsinə dair bütün məlumatları müvafiq əlyazma bölmələrində, ayrıca Süni İntellekt bəyannaməsi bölməsində (burada nümunəyə baxın) və ya nəşr faktları etiketlərindən istifadə etməklə elan edilməsini tövsiyə edirik (aşağıda ətraflı tövsiyələrimizə baxın). Yekun olaraq, biz jurnalın Süni İntellekt siyasətinə riayət olunmasına nəzarət etməyi və hər hansı siyasət pozuntuları haqqında müntəzəm hesabatlar təqdim etməyi tövsiyə edirik.

Elmi ünsiyyət üçün Süni İntellekt siyasətlərində əhatə edilməli olan mövzular və bu istifadənin necə elan edilməsi ilə bağlı EASE tövsiyələri:

- **Müəlliflik/Töhfə:** Biz tövsiyə edirik ki, Süni İntellekt nəşrlərdə həmmüəlliflər siyahısına salınmamalıdır. Redaktorlar bu mövzuda rəhbərlik üçün Ümumdünya Tibbi Redaktorlar Assosiasiyasının (WAME), Beynəlxalq Tibbi Jurnal Redaktorlar Komitəsinin (ICMJE) və ya STM assosiasiyasının (STM) materiallarını nəzərdən keçirməlidirlər. Məsələn, ICMJE bildirir ki, Süni İntellekt müəllif ola bilməz: *"çünki, onlar işin dəqiqliyinə, bütövlüyünə və orijinallığına görə məsuliyyət daşıya bilməzlər və bu məsuliyyətlər müəlliflik üçün tələb olunur"*.
- **Sitatlar və ədəbiyyat icmalı:** Biz tövsiyə edirik ki, Süni İntellekt çıxışları xüsusi iddiaları dəstəkləmək üçün ilkin mənbələr kimi yerləşdirilməməlidir. Tədqiqatlar göstərdi ki, Süni İntellekt tərəfindən verilən sitatlar və məlumatlar qeyri-dəqiq və uydurma ola bilər. Müəlliflərə və rəyçilərə xatırladılmalıdır ki, onlar istinad etdikləri məlumatları həmişə oxusunlar və yoxlasınlar, çünki onlar təqdim etdikləri məlumata görə cavabdeh tərəfdirlər. Əlavə olaraq, Süni intellekt çıxışları sonrakı vaxtlarda təkrarlana bilməz, buna görə də redaktorlar müəlliflərin qeyd etdikləri və ya yerləşdirdikləri hər hansı

çıxışı tutmalı və vaxt möhürü qoymalı olub-olmadığını düşünməlidirlər (müəlliflərin xüsusi mövzular üzrə chatGPT cavablarını nümayiş etdirən nümunəsinə baxın).

- **Məlumatların toplanması, təmizlənməsi, təhlili və şərhi:** Biz tövsiyə edirik ki, Süni İntellektdən məlumatların toplanması, təmizlənməsi, təhlili və şərhi üçün hər hansı istifadə əlyazmanın Metodlar bölməsində və ya Süni İntellekt bəyannamə bölməsində açıqlansın (nümunə üçün bura baxın). Bu bəyanatlar ideal olaraq müvafiq möhkəmlilik və etibarlılıq göstəriciləri, həmçinin, onların təkrar istehsalını təmin etmək üçün addımlarla müşayiət olunmalıdır.

- **Məlumat və ya kod yaradılması:** Biz tövsiyə edirik ki, məlumat və ya kod yaradılması üçün Süni İntellektdən hər hansı istifadə əlyazmanın Metodlar bölmələrində, eləcə də bəzi jurnallarda olan məlumat və kod bəyannaməsi bölmələrində və ya Süni İntellekt bəyannaməsi bölməsində açıqlansın (nümunə üçün bura baxın). Redaktorlar xəbərdar olmalıdırlar ki, yaradılan məlumat və ya kod təhsil məqsədləri üçün əla mənbə ola bilər, lakin fərziyyənin yoxlanılması və digər təhlillər üçün saxta məlumatların yaradılması üçün sui-istifadə edilə bilər. Bundan əlavə, müəllif(lər)in Süni İntellektdən istifadə edərək kod və ya məlumat yaratması, sonra özlərinin Süni İntellekt çıxışlarını redaktə etməsi, kod yaratması və ya özlərinin məlumat toplaması, sonra redaktə üçün Süni İntellektdən istifadə etməsi arasında fərq qoymaq çətin ola bilər.

- **Vizuallaşdırma – cədvəllərin, fiqurların, şəkillərin, videoların və ya digər çıxışların yaradılması:** Biz tövsiyə edirik ki, vizuallaşdırma üçün Süni İntellektdən hər hansı istifadə əlyazmanın Metodlar bölməsində və həmin çıxışların başlıqlarında və ya sonluqlarında açıqlansın. Süni İntellektin yaratdığı təsvirlər onların etibarlılığını təmin etmək üçün yoxlamalar, eləcə də, onun təkrar istehsalını təmin etmək üçün addımlar tələb edə bilər. Redaktorlar bu məqsədlər üçün Süni İntellektdən istifadəni qadağan edən siyasət nümunələrini və "məntiqsiz" təsvirə görə məqalənin geri çəkilməsi nümunəsini nəzərdən keçirməlidirlər.

- **Yazı, dil və üslub redaktəsi:** Biz tövsiyə edirik ki, müəlliflər yazı, dil və üslub redaktəsi üçün Süni İntellektdən istifadələrini bəyan edib-etməmələrini və necə bəyan etməli olduqlarını dəqiqləşdirməlidirlər. Redaktorlar müəlliflərə bu cür istifadəni Təşəkkürlər bölməsində və ya Süni İntellekt bəyannamə bölməsində bəyan etmələrini tövsiyə edə bilər (nümunə üçün bura baxın). Alternativ olaraq, redaktorlar orfoqrafiya yoxlama proqram təminatının istifadəsinə bənzər belə bir istifadənin bəyan edilməsinə ehtiyac omadığını da müəyyənləşdirə bilərlər. Redaktorlar xəbərdar olmalıdırlar ki, müəllifin Süni İntellektdən istifadə etməklə mətn yaratmasını, sonra onu redaktə

etməsini, ilkin mətn qaralamasını yazmasını, Süni İntellektdən istifadə etməklə onu redaktə etməsini fərqləndirmək çətin ola bilər. Bu məsələ ilə bağlı naşirlərin siyasətlərinin faydalı icmalı üçün bu Elmi Mətbəx postuna baxın (2024-cü ilin yazında tərtib edilmişdir).

- **Digər tədqiqat istifadələri:** Biz hər hansı Süni İntellekt istifadəsinin, yuxarı bölmələrdə əhatə olunmayanların da açıqlanmasını tövsiyə edirik. Belə istifadə müvafiq bölmədə açıqlanmalıdır (məsələn, Təşəkkürlər, Metod bölməsi və ya Süni İntellekt bəyannamə bölməsi). Məsələn, müəlliflər tədqiqat hesabatı tövsiyələrini, şəkil, kod və məlumat bütövlüyünü yoxlamaq üçün özünü yoxlayan Süni İntellekt alətlərindən istifadə etməyi seçə bilərlər.

- **Həmkarların rəyi:** Biz rəyçilərin həmkarların nəzərdən keçirilməsi zamanı Süni İntellekt alətlərindən istifadə edilməsinə icazə verib-vermədiyini dəqiqləşdirməyi və rəyçinin yazılı şərhlərinin dil və üslub redaktəsi üçün Süni İntellektdən istifadə etməsi ilə rəy şərhlərinin Süni İntellekt ilə yaradılması ilə fərqləndirilməsini tövsiyə edirik. Bundan əlavə, jurnallar icmalın Süni İntellekt tərəfindən yazılan hissələrini yoxlayan hər hansı alətdən istifadə edib-etmədiklərini və necə istifadə edəcəklərini, bu tapıntıların potensial nəticələrinin nə olduğunu və müəlliflərin bu məqsədlər üçün Süni İntellektdən istifadədən şübhələndiyi hallarda nə etməli olduqlarını dəqiqləşdirməlidirlər (məsələn, müəllifin Süni İntellekt tərəfindən yazılan icmal hesabatları ilə bağlı narahatlıqları bildirən və COPE-nin qərar qəbul edərkən Süni İntellekt üzrə müzakirə sənədinə baxın). İstənilən Süni İntellekt baxış siyasəti baxış dəvəti e-poçtlarında onlayn təqdimetmə platformasında vurğulanmalıdır. Biz xəbərdarıq ki, bir sıra jurnallar, nəşriyyatlar və maliyyə agentlikləri potensial qərəzlilik riskinə, məxfilik problemlərinə və onların sübut olunmamış düzgünlüyünə, effektivliyinə və etibarlılığına görə expert rəyçiləri tərəfindən (məsələn, Kral Cəmiyyəti, Milli Sağlamlıq İnstitutu, Elsevier) Süni İntellekt alətlərindən istifadəni qadağan edib. Bununla yanaşı, belə qadağaları həyata keçirmək çətindir və əgər varsa, onlardan istifadənin nəticələrinin nə olacağı aydın deyil. Ekpert rəyində Süni İntellektdən istifadə ilə bağlı əlavə mülahizələr üçün bura baxın.

- **Redaksiya İşi:** Biz tövsiyə edirik ki, redaktor və ya redaksiya heyəti tərəfindən Süni İntellektdən hər hansı istifadə jurnalın saytında və müəlliflərlə və rəyçilərlə ünsiyyətdə açıqlansın, bura əlyazmaları və ya rəyçi hesabatlarını Süni İntellekt tərəfindən yaradıldığını və ya redaktə edildiyini aşkara çıxaran yoxlama alətlərindən hər hansı istifadə də daxildir. Biz həmçinin redaktorlara, jurnallara və nəşriyyatlara nəşr faktları etiketlərindən istifadə edərək Süni İntellekt tərəfindən həyata keçirilən hər hansı yoxlamaları elan etməyi də tövsiyə edirik. Yekun olaraq, jurnalın Süni İntellekt siyasətlərinə tərəflərin Süni İntellekt siyasətinin pozulması ilə bağlı narahatlıqlarını necə qaldırmalı olduqları, hər hansı tərəfin pozuntu halında qarşılaşa biləcəyi

nəticələr və bu siyasətlərlə bağlı jurnal qərarlarına şikayət etmək üçün mümkün vasitələr haqqında məlumatlar daxil edilməlidir.

**Süni İntellekt siyasətlərinin nümunələri** (əlifba sırası ilə):

**Nəşriyyatçılar:** Elsevier, Springer-Nature,Taylor-Francis, Wiley

**Assosiasiyalar:** ICMJE, WAME

**Jurnallar:** PLOS ONE

**Müəlliflər üçün tövsiyələr**

- **Süni İntellektdən istifadə ilə bağlı jurnal və ya nəşriyyat siyasətlərini yoxlayın.**
- **Əlyazmanın yaradılması, redaktəsi və təftişi zamanı Süni İntellektdən hər hansı istifadəni bəyan edin (o cümlədən, baxış təkziblərinin yaradılması zamanı)**

Əlyazmanı təqdim etməzdən əvvəl, biz müəlliflərə elmi ünsiyyətdə Süni İntellektdən istifadə ilə bağlı jurnal və ya nəşriyyat siyasətlərini yoxlamağı tövsiyə edirik (məsələn, jurnalın veb saytını yoxlamaq və ya birbaşa jurnalla əlaqə saxlamaqla). Jurnalda Süni İntellekt siyasəti olmadıqda və ya bu siyasət maraqlı tərəfin Süni İntellektdən istifadəsinin xüsusi aspektlərini əhatə etmədikdə, biz müəlliflərə Süni İntellektdən istifadənin necə bəyan edilməsi ilə bağlı EASE tövsiyələrini yoxlamağı və əməl etməyi tövsiyə edirik. Əgər jurnalın siyasətləri müəllifin özünün Süni İntellektdən istifadəsinə uyğun gəlmirsə, biz müəlliflərə jurnalı aldatmamağı, əksinə jurnalla əlaqə saxlamağı və izahatlar və ya istisnalar istəməyi, və ya başqa jurnalı öz işləri üçün çıxış yeri kimi nəzərdən keçirməyi tövsiyə edirik. Müəlliflər bilməlidirlər ki, o jurnallar və ya onların həmmüəllifləri əlyazmanın hissə(lər)nin Süni İntellekt aləti tərəfindən yaradılıb və ya redaktə olunduğunu aşkara çıxaran vasitələrdən istifadə edə bilərlər. Özünü yoxlama siyahısı kimi, bu cür alətlərdən istifadə etməyi düşünə bilərlər.

Müəlliflər jurnalın Süni İntellekt siyasətinin pozulmasından və ya baxış hesabatlarının və ya redaktor şərhlərinin Süni İntellekt tərəfindən yaradıldığından şübhələndikdə, biz müəlliflərə məsləhət veririk ki, bu şübhənin aydın təsviri ilə bağlı redaktorla əlaqə saxlasın. Müəlliflər şərhlərdə Süni İntellektin iştirakını aşkar edən alətlər vasitəsi ilə işləməyi də nəzərdən keçirə bilərlər, əlavə olaraq bu cür vasitələrin hesabatlarını Süni İntellektdən istifadənin mümkün sübutu kimi öz ünsiyyətlərinə daxil edə bilərlər (Süni İntellekt yazılı hesabatlarının alınması ilə bağlı narahatlıqlarını ifadə edən tədqiqatçının nümunəsinə, eləcə də COPE-un qərar qəbulunda Süni İntellektlə bağlı müzakirə sənədinə baxın). Əgər müəllifin redaktoru və ya redaksiya ofisini izləməsinə heç bir diqqət yetirilməzsə, biz müəlliflərə redaktora və redaksiya ofisinə edilmiş əvvəlki müraciətlərinin surəti ilə jurnalın

nəşriyyatı ilə və ya cəmiyyətlə əlaqə saxlamasını məsləhət edirik, əgər onlar yoxdusa, Nəşr Etikası Komitəsi və ya STM Bütövlük Mərkəzi ilə saxlayın.

**Həmkar rəyçilər üçün tövsiyələr**

- **Süni İntellektdən istifadə ilə bağlı jurnal və ya nəşriyyat siyasətlərini yoxlayın**
- **Rəy hesabatlarının yaradılması və redaktəsi zamanı Süni İntellektdən hər hansı istifadəni bəyan edin.**

Jurnaldan həmkar rəy dəvətlərini nəzərdən keçirərkən, rəyçilər jurnalın və ya nəşriyyatın rəyində Süni İntellektin istifadəsini yoxlamalıdırlar (məsələn, jurnalın veb saytını və baxış dəvəti poçtunu yoxlamaqla). Jurnalın Süni İntellekt siyasəti olmadıqda və ya bu siyasət maraqlı tərəfin Süni İntellektdən istifadəsinin xüsusi sahələrini əhatə etmədikdə, biz rəyçilərə Süni İntellektdən istifadəni necə elan etməli olduqlarını üçün EASE tövsiyələrini izləməyi və yoxlamağı məshət görürük. Jurnalın siyasəti rəyçinin Süni İntellekt istifadəsinə uyğun gəlmirsə, biz rəyçilərə jurnalı aldatmamağı, əksinə jurnalla əlaqə saxlamağı, izahatlar və istisnalar istəməyi, rəy dəvətini rədd etməyi məsləhət görürük. Rəyçilər bilməlidirlər ki, jurnallar və ya müəlliflər öz icmal hesabatlarını, həmin hesabatın hissələrinin Süni İntellekt tərəfindən yaradılıb və ya redaktə edildiyini aşkar edən alətlər işlədə bilərlər. Özünü yoxlama siyahısı kimi, rəyçilər bu cür alətlərdən istifadə etməyi düşünə bilərlər.

Rəyçilər jurnalın Süni İntellekt siyasətinin pozulmasından və ya əlyazmanın və digər rəyçi şərhlərinin Süni İntellekt aləti tərəfindən yaradılmasından şübhələndikdə, biz rəyçilərə şübhənin aydın təsviri ilə redaktorla əlaqə saxlamalarını tövsiyə edirik. Rəyçilər, həmçinin, Süni İntellektdən istifadəni aşkar edən alətlər vasitəsi ilə çıxışlarını nəzərdən keçirməlidirlər və bura Süni İntellektdən istifadənin mümkün sübutu kimi bu cür alətlər haqqında hesabatlar da daxildir (Süni İntellekt yazılı hesabatların qəbulu ilə bağlı tədqiqatçının öz narahatlıqlarını ifadə edən nümunəsinə və COPE-un qərar qəbulunda Süni İntellekt haqqında müzakirə sənədinə baxın). Rəyçilərin redaktor və redaktor ofisini izləməsinə heç bir diqqət yetirilməzsə, biz onlara redaktora və ya redaktor ofisinə etdikləri müraciətin sürəti ilə jurnal nəşriyyatı və ya cəmiyyəti ilə əlaqə saxlamağı məsləhət görürük, əgər bunlar mövcud deyilsə, Nəşr Etikası Komitəsi (COPE) və ya STM Bütövlük Mərkəzi ilə əlaqə saxlayın.

EASE Ekspert Rəyi Komitəsi

Nəşr olunub: Çərşənbə, 25 sentyabr 2024